# ARAZBARI

*(Əvvəli ötən sayımızda)*

Üzeyir bəy:

-Biz heç kəsdən qorxmamalıyıq. Sadəcə, azadlıq, tərəqqi üçün çalışmalıyıq. Hətta, bunun uğrunda özümüzü qurban verməkdən belə çəkinməməliyik. Tez gedək, vaxt keçir "Əsli-Kərəmə" baxmağa camaat gələcək.

Ərəblinski:

-Ay başına dönüm, hansı camaatdan danışırsan? Atılan güllələrdən, yoxsa, qorxudan yerində donub qalmış camaatdan danışırsan?

Birdən qapı açıldı. Hamı "Bismillah" dedi. Qapını açan Üzeyir bəyin qardaşı Ceyhun bəy idi. Ceyhun bəy təlaşla dedi: - Ay kişilər, nəyin davasını edirsiniz? Şərəf sözünü ilk dəfə eşidən ermənilər teatrımıza çatıblar. Deyirlər ki, aktyorları istəyirik.

Üzeyir bəy dedi: - İlahi bizi kimin qarğışı tutub? Kimin? – Üzeyir bəy əlini dizinə çırpdı- bir az fikirləşib dedi;

Aha, mənim bir planım var.

-Nə plan?

Üzeyir bəy planını dedi. Birazdan onlar teatra gəldilər və orada oturan erməni komandirlərini, Çingiz İldırımı, Stepan Şaumyanı gördülər. Üzeyir bəy bunların halını təxmin edirdi. Bilirdi ki, olmayan erməni mədəniyyətinə necə qalib gələcəklər.

Şaumyan gülərək dedi:

-Ara, göstərin də tamaşanızı. Amma tamaşada ancaq ermənilər öyülməlidir. Yoxsa, axırınız pis olacaq. Başlayın, başlayın, ara, nrakvarçumi.(tərcüməsi-qorxaqlar deməkdir)

Üzeyir bəy içində sadəcə piano olan orkestrə başçılıq edirdi. Bu tamaşada oynayanlar Darablı, Ərəblinski, Ceyhun bəy, Sarabski, Ağdamski və çağrılmamış sürpriz qonaqlar idilər.

Tamaşa dəyərli bir mahnı ilə başladı. Bu hələ ki sadəcə, mahnı idi. Sonra ona çox dəyər verəcəkdilər. Xor "Heyratı" muğamını oxuyurdu: -Qalx ayağa Millət! Boğmasınlar səsimizi,

Bir bayraq altında birləşdir bizi!

Birdən şaumyanın rəngi bozardı. Onun tüstüsü təpəsindən çıxdı və qışqırdı: - Dayanın, ara! Nrakvarçumi, dayanın da! Beyninizi dağıdaram sizin, dayanın!

Şaumyan bir neçə dəfə atəş açıb teatrın pərdələrini və divarlarını dəlik-deşik etdi. Lakin, heç kəs susmurdu. Susa bilməzdi. Sanki, şeir özlərinin idi. Durmadan təkrarlayırdılar. Şaumyanın beynində əks-səda verən bu şərq musiqisi güllə kimi başına girib beynində dolanırdı. Üzeyir bəy mahnını bitirib pianonun qapağını bağlayırdı ki...

Teatrın sol tərəfdəki girişindən bir dəstə azərbaycanlı vətənpərvərlərlə Əbdürrəhim bəy Haqverdiyev salona daxil oldular. Onlar hirsli baxışlarla kafirlərə tərəf gəlirdilər. Haqverdiyev dedi: - Sizə Qafqazda yurd-yuva verməyişik, nankorluq etməyiniz artıq qabı daşdıran son damla olub. Ya buradan çıxıb gedərsiniz, ya da Noenin gürcü vətənpərvərləri ilə birgə sizin axırınıza çıxarıq!

Gələn gənclərdən biri ermənilərə dedi: - Siz nə nrakvarçumi-nrakvarçumi salmısınız? Nə olub, deyəsən, meymun güzgüyə baxıb. Bizi cin atına mindirməyin. Bu Qafqazda əzəldən Gürcüstan və Azərbaycan dost olub, birlikdə günəş kimi parlayıb, sizin isə heç bir dəftərdə adınız yazılmayıb! Ya yola gəlin, ya da... sizin üçün heç yaxşı olmayacaq. İndi davam etməyə çalışsanız da imkan verməyəcəyik.

Şaumyan və tərəfdarları başqa çıxış yolu görmədikləri üçün pərt halda oradan çıxıb getdilər.

Artıq ermənilər yaxşı bilirdilər ki, Qafqazda ən çox parlayan ulduz Azərbaycandır, Azərbaycan! Və heç bir qorxaq, ya da qorxaqların dili ilə desək, nrakvarçumilər bu ulduzu söndürə bilməzlər!

30 yanvar-28 aprel 1920-ci il.

Bu gün çox önəmli bir gün idi. Azərbaycan Xalq Cümhuriyyətinin yeni bir iclası bu gün baş tutacaqdı. Bu gün yeni bir məsələ ortaya qoyulacaqdı: AXC-nin himni məsələsi!

Bu şanlı iş kimə təklif olunacaqdı? Axı Azərbaycanda güclə istiqlal parlamışdı, hələ də mövhumatçıların əlindən



*Üzeyir Hacıbəyli, 1906-cı il*

insanlar baş qaldıra bilmirdilər. Neçə-neçə soyqırımlar olmuş, xalqa başdan-başa divan tutulmuşdu. Ona görə də bu vaöta qədər dövlət himnin qəbul olunmaması normal hal kimi qarşılanmalı idi.

İclas başladı. Məhəmməd Əmin Rəsulzadə mühüm çıxış etdi:

-Əfəndilər! Bilirsiniz ki, xalqımıza böyük divanlar tutuldu, erməni cəlladları bizim bütün torpaqlarımızı çapdı taladı, hələ də utanmadan başını qaldırıb üzümüzə baxa bilən bu utanmazların demək olar ki, hər şeyi var. Gerbləri var, bayraqları var, silahları-sursatları var, himnləri var. Bizim də gerbimiz var, bayrağımız var, ordumuz var, bəs nəyə görə, bizim dövlətimizin himni yoxdur? Bu Şanlı Vətənin Şanlı Himni olmalıdır ki, dinləyəndə ermənilərin qəlbinə ox batırsın. Tək ermənilərin yox, bütün düşmənlərimizin.

Ən əlası da, içimizdəki düşmənlərin ürəyinə ox batırılmalıdır. Ona görə də, qərar verirəm ki, müsabiqə keçirilsin və bütün marşlar ortaya qoyulsun. Hökumətin, eləcə də mənim bəyəndiyim marş Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Himni olacaqdır!

Üzeyir Hacıbəyli də bu himni yaratmaq istəyirdi. İstəyirdi ki, əbədi istiqlalın nəğməsini yaratsın. İstəyirdi ki... Nələr istəyirdi, nələr arzulayırdı ?...

Rəsulzadənin mühüm çıxışından bir gün sonra Üzeyir Hacıbəyli bir gənc şairlə tanış oldu.

-Salam, gənc yazar. Adınız nədir? Siz də milli marş yazmaq istəyənlərdənsinizmi?

-Adım Əhməd Axundzadədir. Bəli, mən də yazar olaraq müsabiqəyə qatılmaq istəyirəm. Bəs sizin adınız nədir?

-Şərqdə ilk operanın yazarı Üzeyir bəy Hacıbəyliyəm mən. Mən də bəstəkar olaraq iştirak etmək istəyirəm. İstəyirəm ey istəməsinə, bir şairin Azərbaycanımıza layiq samballı şeiri olsun ki mən də həmin sözlərə mahnı bəstələyim.

-Mən də bəstəkar gəzirəm ki, sözlərimə marş musiqisi bəstələsin.

Üzeyir bəyin ağlına çox yaxşı fikir gəldi.

-Əhməd, biz birgə işləyə bilərik. Siz şeir yazarsınız, mən də həmin şeirə mahnı bəstələyərəm. Böyük bir marş olar.

-Əla bir fikirdir. Onda elə bu gün başlayaq.

-Bəli, başlayaq.

Artıq bu gün bir tarix yazılırdı. Bu gün bütün Azərbaycanın marşı yazılırdı. Üzeyir bəy yenə tarix yazırdı! Yazmışdı, yazırdı və yazacaqdı!

Bir neçə günə artıq marş hazır oldu. Bu böyük marş bir millətin dastanının musiqiyə çevrilmiş forması idi. Bu marş böyük marş idi.

Müsabiqə başladı. Bütün marşlar çalındı. Ən axırıncı onların marşı çalındı. Marş elə çalınırdı ki, elə bil ilahi bu marşı himn kimi qəbul olunması üçün özü bəyənib gşndərmişdi. Bu marşda qəm yox, kədər yox idi. Bu marşda böyük Azərbaycanın tarixi varaqlanırdı.

Marş başlayandan bitənə qədər Məhəmməd Əmin sevinclə Üzeyir bəyə baxırdı. 10 ildən sonra yenə bir iş səbəbi ilə bir yerdə idilər, eyni məqsəd üçün bir araya gəlmişdilər. Məhəmməd Əmin marş başlayan kimi istəyirdi ki, bu Azərbaycanın marşı olsun. Çünki, o biri marşlardan fərqli olaraq bu marş özü bir Azərbaycan idi! Bütöv bir Azərbaycan!

Müsabiqənin yekununda Məhəmməd Əmin münsiflərin qərarını açıqladı: - Müsabiqənin yekunundayıq. Bu yekunda veriləcək qərar çox önəmli qərardır. Ona görə də, çox düşünməli olduq və axırda qərar verməli olduq. Qərarımız bir Azərbaycanın qərarı olacaq. İndi seçəcəyimiz mahnı 100 illər keçsə belə gündəmdən düşməyəcək. Düşməz də. Nə qədər ki, Azərbaycan var, düşməyəcək.

Qərarımız budur: Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Himni sözləri Əhməd Cavada, musiqisi Üzeyir Hacıbəyliyə məxsus olan "Azərbaycan" marşı olsun! Məclisi-Məbusanımusanmızın iclasları bu marşla başlanıb, bu marşla bitəcəkdir! Bizim istiqlalımız isə bu marşla bitməyəcəkdir! Ümumiyyətlə bitməyəcəkdir! Təzə və təravətli qalacaqdır!

Artıq Üzeyir bəy özünün və xalqının tarixini, musiqi tarixini yazmışdı! Onun bəstələdiyi musiqi Azərbaycanın Dövlət Himni olmuşdu! Bu, 100 il əvvəl təsdiqlənmişdi, 100 il sonra da təsdiqlənəcəkdi! Bu, İstiqlal nəğməsi idi! İstiqlal nəğməsini isə heç kəs unuda bilməzdi!

SON DÖVR (1933-1948).

1933-cü ilə qədərki dövrdə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi, imperialist şura hökuməti yaradıldı. Sanmayın ki, sadəcə 5 ay oxunuldu bu himn. Bu himn 100 il dodaqlarda gəzdi, sonsuza qədər də gəzəcək! Ancaq, həmin illərdə gizli-gizli himnimizi ellərə çatdırmağa başlayırdılar. Onlar yerli xalq və xalqa lazım olan AXC deputatları ; Əhməd bəy Pepinov, Rza bəy Qaraşarlı, İbrahim Əbilov və digərləri idilər.

Sosialist imperializminin tərəfdarları olan şəxslər artıq dünyada olan bir çox fəaliyyətləri qadağan etməyə başlamışdılar. Balet, opera və digər musiqi əsərləri bəzi hökumət adamları tərəfindən sevilməsə də Üzeyir bəy də öz işini bilirdi.

Musiqisevərlərin çoxu elə bilirdi ki, Üzeyir bəy ömründə balet yazmayıb. Təbii, Üzeyir bəy balet yazmayıb. Lakin, onun 1920-ci ildə yazdığı "Azərbaycan" xoreoqrafik miniatürü özü bir balet demək idi. Bu hökumətə baleti Üzeyir bəy və Müslüm Maqomayev xoreaqrafik miniatür adı ilə sevdirməyə başladı. 1923-cü ildə Azərbaycanda balet studiyası yaradıldı. Bununla da, Azərbaycan baletinin əsası qoyuldu. Lakin, Müslüm Maqomayevin "Dəli Muxtar"ı bu dəfə balet adı ilə izləyicilərə təqdim ediləcəkdi ki vaxt az olduğundan Müslüm Maqomayev bu baleti tamamlaya bilmədi. Əgər bu əsər tamamlansa idi, Azərbaycan baletinin əməlli təməli qoyulacaqdı.

Üzeyir bəy bundan sonra balet yazmadı. Lakin, operaya möhtəşəm bir dönüş etdi.

1933-cü ildə artıq Üzeyir bəydə yeni ilham coşurdu. Təkcə, ona görə yox ki, bunu artıq şura hökuməti də tələb edirdi. Üzeyir bəy operanı şuraya sevdirmişdi. Artıq hökumət yeni-yeni musiqi əsərləri ilə SSRİ-nin mənən rəqabət apardığı Amerika Birləşmiş Ştatlarını keçməsini istəyirdi. Yəni, soyuq müharibə çoxdan başlamışdı. Əslində, soyuq müharibə Rusiya imperiyasının dövründə də var idi.

Üzeyir bəy gecə-gündüz vaxt sərf edib işləyirdi, araşdırdı. Çoxlu nəzm və ya nəsr əsərlərini araşdırırdı ki, həmin əsərlər əsasında bir opera yazsın. Lakin, nə qədər çalışdı, tutarlı birisini, ürəyincə olanını tapa bilmədi.

Bir neçə gün sonra artıq təlimat gəlmişdi. Üzeyir bəy "Dəmirçi Gavə" adlı yeni opera bəxş etməli idi. Bu operada ona Məmməd Səid Ordubadi libretto müəllifi olaraq kömək edəcəkdi. Belə işlərdə Üzeyir bəy də Ordubadiyə güvənirdi.

Ancaq, Üzeyir bəy nəsə elə bil özünü yorğun hiss edirdi. Elə bil bu adda əsəri yazmaq istəmirdi. O, çox düşündü və sonda başındakı ağlından bəd fikirləri atdı. Ordubadi bir neçə günə "Dəmirçi Gavə"nin librettosunu yazmışdı. Üzeyir bəy artıq operaya başlamalı idi. Nə qalmışdı ki bitməsinə?.

Akademiyada işləyən Heydər İsmayılov bir gün Üzeyir bəyə dedi:

-Üzeyir bəy, sizi solğun görürəm.

-Nədənsə, ürəyim operanı yazmaq istəmir.

-"Dəmirçi Gavə"ni?

-Bəli.

-Könülsüzsünüzsə, yazmayın. Əsl iş o işə işçinin sevgisini qatması ilə olar.

-Librettosunu da yazıblar. İndi mən nə edim?

-Mən sizə daha yaxşı bir mövzu təklif edirəm. Necə olur, "Dəmirçi Gavə" yadınıza gəlir, lakin heç "Koroğlu" yadınıza gəlmir?

-Koroğlu?

-Lap qiyamət olar. İndi sovetlər bizim keçmişimizi danırlar. Bir də görəcəksən, dastanları yandıracaqlar, itirəcəklər, bütün dastanları oxumağı qadağan edəcəklər. Nəinki dastanlara, şifahi xalq ədəbiyyatımıza, əbədiyyatımıza qadağa qoyacaqlar. Mən də ona görə çalışıram ki, milli dəyərlər danılmasın, unudulmasın, yaddaşlardan silinməsin. Savab iş görmüş olarsınız.

-Əntiqədir. Təklifinizi mütləqdir ki, qəbul edirəm. Mən bu mövzuda mütləq və mütləq opera yazacağam. Ordubadiyə deyəcəyəm, bu operanın librettosuna başlasın. Libretto nə vaxt bitsə, sizə deyəcəyəm, siz də librettosuna bəzi dəyişikliklər edərsiniz. Siz də olarsınız librettist.

-Çox sağ olun, Üzeyir bəy.

-Əsas siz sağolun, var olun, Heydər bəy.

*(Davamı 7-ci səhifədə)*

# ARAZBARI

*(Əvvəli 6-cı səhifədə)*

Üzeyir bəy şura hökumətini və Məmməd Səid Ordubadini güclə razı salıb həvəslə və 1908-ci ilə geri qayıda-qayıda bu əsəri yazmağa başladı və “Koroğlu” operasının 5 pərdəsinə ömrünün 3 ilini sərf etdi. Bu möhtəşəm əsəri Üzeyir bəy 1936-cı ildə bitirdi. Bir illik çətinlikdən sonra şura hökuməti birtəhər bu operanı tamaşaya qoymasına razılıq verdi və aprel ayında afişalar asıldı. 30 apreldə opera tamaşaya qoyulacaqdı. Rolların çoxu bəlli olmuşdu:

Koroğlu-M.Məmmədov
Nigar- G.İskəndərova
Həsən xan-M.Bağırov
İhsan paşa-Ə.Zülalov
İbrahim xan-B.Mustafayev
Həmzə bəy-K.Hüseynov
Təlxək-K.İskəndərov

30 aprel 1937-ci il tarixi bir gün oldu. Həmin gün şifahi xalq ədəbiyyatımız SSRİ dağılanacan sığortalanmışdı. O gün möhtəşəm gün idi. Hamı teatra axışırdı. Hamı bu qədimliyin axtarışında idi. Ona görə də, bütün Bakı həmin axşam öz qəhrəman keçmişinə yürüş etdi. Hamı, bütün Bakı “Koroğlu”dan razı qaldı.

İnsanlar neçə müddət bu operadan təsirləndilər. Opera Bakıda bir neçə dəfə oynanıldı. Bakıda bu operanı izləməyən qalmadı.

Bir müddət keçdikdən sonra artıq mərkəzdəki rəhbərlərinin buyruğunu yerinə yetirmək üçün məkrli planlarına başlayan o vaxtkı respublika rəhbərliyi məkrli ermənilərin planına əsasən hər hansı bir yolla Üzeyir bəyi də güllələtmək istəyirdi. Savadsız, istedadsız olan qeyri-millət azərbaycanlıları Üzeyir bəyi çox qısqanırdılar. Axı, özləri onun dırnağı da ola bilməzdilər. Üstün olmaq istəyən bu “insan”lar mühitində onu ötən ziyalıları aradan qaldırmaq istəyənlər də az deyildi.

Yox edilməlilər siyahısında Üzeyir bəy də var idi. Respublika rəhbərliyi bu işi görmək barədə yuxarıdakı “yoldaşlar”dan razılıq istəyirdi. Ona görə də, ağlına gələni uydurub Üzeyir bəyin nüfuzuna xələl gətirməyə çalışırdı. Onun nüfuzuna xələl gətiriləndən sonra istənilən vaxt güllələtdirə bilərdi. Lakin, Üzeyir bəy Allahını sevən idi. Onun Allahı da Üzeyiri sevirdi və həmişə onu qoruyurdu.

Sayılıb-seçilən, millətini sevən, vətənpərvər azərbaycan türklərinə qarşı şura hökumətində təzyiqlər yüksəlməyə başlamışdı. Hamı Üzeyir bəyin tərəfini tuturdu. Hətta ” yoldaşlar”ın da yarısı Üzeyir bəyin yaşamasını istəyirdi.

Ona görə də, respublikanın birinci katibi kabinetinə girdi və əlini stola çırparaq bu sözü dedi:

-Min lənət olsun! Mən onu öldürə bilmədim! Öldürə bilmədim onu!

O, kağızda Üzeyir bəyin adını qaraladı. Üzeyir bəylə birlikdə bir neçə insanın da adını qaraladı. Onların bir neçəsini özü lazım bilmədi. O, həmin gün böyük psixoloji sarsıntı keçirirdi. Üzeyir bəy gündən-günə yüksəlirdi. Çünki Allah Üzeyirin tərəfində idi. Ona görə də şər qüvvələr Üzeyirə qalib gələ bilməyəcəkdi.

Bir müddət sonra bəyənilən “Koroğlu”nun bir çox ölkələrdə nümayiş etdirilməsi qərara alındı. Bununla da sovet mədəniyyətində Azərbaycan mədəniyyəti xüsusi yeri olan respublika (ölkə) olacaqdı. Lakin, o vaxtkı respublika rəhbərliyi buna mane olmağa çalışırdı. O, “Koroğlu”nun burjuaziyaya aid olması kimi əsassız fikirlər deməklə bərabər, ermənilərlə birlikdə operanın Rusiyaya göndərilməsini xeyli müddət yubatmağa nail olmuşdu.

Belə ki, bir ilə yaxın müddətdə “Koroğlu”nun Rusiya səfəri yubadıldı. Lakin, 1938-ci ildə hamının qan içdə üzdüyü, cəhənnəm əzabı gördüyü, mədəniyyətin yada belə düşmədiyi bir vaxtda Üzeyir bəy rus mədəniyyət işçiləri ilə danışdı və həmin il operanın rusiyada “Böyük Teatr”da göstəriləcəyi təsdiqləndi!

1938-ci ildə “Böyük Teatr” Şərqlə coşdu-qaynadı. Elə bil “Böyük Teatr” Puşkinin, Lermontovun, bir çox rus yazarların qərb iyi verən atmosferindən çıxmışdı. Bu gün “Koroğlu”azərbaycanla birlikdə rusiyaya səfər edirdi. Təəssüf ki, bu səfər “Sosialist Koroğlu” adıyla baş tuturdu.

Həmin gün bütün sosialist siyasətçilər, diplomatlar “Böyük Teatr”da toplaşmışdılar. Onların arasında Azərbaycanlılar da var idi. Onlar dəli kimi sevinirdilər. Artıq SSRİ məkanında Azərbaycan mədəniyyət sahəsində bir inci olacaqdı! Burada elə bir insan oturacaqdı ki, onun oturması ilə Üzeyir bəyin həyatı sığortalanmış, Azərbaycan mədəniyyəti ilə SSRİ birincilik əldə etmişdi. Bu opera onu diktatorluqdan çıxardıb yumşaldacaqdı. Bu, İosif Stalin idi! O da tamaşanı izləyəcəkdi.

Stalin ağır addımlarla teatra daxil oldu. Hamı ayağa qalxdı. Stalinin işarəsindən sonra hamı oturdu. İnsanlar onun qarşısında tir-tir əsir, söz belə deyə bilmirdilər. Lakin, Üzeyir bəy Stalinin yanında fikir bildirə bilirdi. Çünki, operanı o yazmışdı.

Heydər İsmayılov həmin vaxt Bakıda kiçik elmi işçi kimi çalışarkən bu xəbəri eşitmiş, sevincindən dəliyə dönmüşdü. Onun bir vaxtlar Üzeyir bəyə etdiyi bir təklifi indi operaya dönmüş və bu operanı Stalin izləmişdi. Üzeyir bəyə bu təklifi etdiyini o, desə yəqinki çoxları dodaq büzüb ona gülərdilər. Heydər İsmayılov özü bunu istəmirdi. Təvazökarlıqdan kənar olmaq istəmirdi. Amma bunu deməyə haqqı var idi.

Stalin opera tamaşaya qoyularkən dedi:

-Bu opera çox əla bir operadır. Bununla biz dünyada özümüzü, öz mədəniyyətimizi sübut edə bilərik. Biz kapitalistlərdən də yaxşı opera yaza bilirik. Bizim güclü əllərimiz vardır. Üzeyir Hacıbəyov kimi istedadlı şəxslərə qıymaq, onları öldürmək sovet mədəniyyətini məhv etməkdir və böyük günahdır!

Bu sözdən sonra artıq heç bir qüvvə Üzeyir bəyi günahlandıra bilməzdi. Əksinə, Üzeyir bəy dirçəldikcə dirçəldi, yüksəldikcə yüksəldi, ucaldıqca ucaldı. O, Azərbaycanın və doğulduğu Ağcabədinin fəxri, vüqarı, öz ölkəsini ucadan uca edən və dahi adını qazanan ÜZEYİR HACIBƏYOV OLMUŞDU!

Bundan bir neçə il keçdi. 1941-ci ildə “Sənsiz” və “Sevgili canan” romansları ilə könülləri fəth edən Üzeyir bəy Azərbaycan SSR-in himnini də yazmışdı. Bir millətin qurduğu iki Azərbaycan dövlətinin və respublikasının himninin müəllifi olmuşdu. Üçüncü dövlətin (Azərbaycan Respublikası) də olacağına ümid edir və onun da himnini yazmağı arzulayırdı Üzeyir bəy.

1945-ci ildə sərhədləri aşıb okeanın o tayında Amerikaya gedib çatan “Arşın mal alan” filmi çəkildi. O, bu filmi ilk dəfə 1917-ci ildə çəkmişdi. Lakin, lentlər köhnəlmişdi. Ona görə də, neçə il sonra bu filmi təzədən çəkmək lazım oldu.

1945-ci ildə o, “Firuzə” operasını yazmağa başladı. Əvvəlcə istədi ki, operanın adını dəyişdirib “Şərəbanu” qoysun. Lakin, bu operanın adını “Firuzə” qoydu, həmin operanı yazanda çox ümidli idi. Rusiyanı diyar-diyar gəzmək istəyirdi bu operayla birgə Üzeyir bəy...

Bir tərəfdən də, Üzeyir bəy istedadlı və bilikli gənclərin yolunu açırdı. Onlardan Gülağa Məmmədovun, Şövkət Ələkbərovanın, Asəf Zeynallının və çoxlu-çoxlu korifeylərin adını çəkə bilərik.

Gündə neçə-neçə istedadlıları irəliyə aparan Üzeyir bəyi qısqananlar o qədər çox idi ki... Onu qısqananların lap çoxu da erməni mənfurları idi.

Mərkəzi Komitədən Üzeyir bəyə zəng edib tapşırmışdılar ki, Aram Xaçaturyanın yeni simfoniyasını hazırladıb dinləmə keçirilsin və şura tərəfindən qəbul olunub təsdiq edilsin. Öyrəndik ki, ermənilər İrəvanda onun əsərini təsdiq etməyiblər. Üzeyir bəy göstəriş verdi, partitura orkestrdə paylandı, əsər dinlənilməyə hazırlandı.

Professor-müəllim heyəti toplanıb Xaçaturyanın simfoniyasına qulaq asdı. Sonra adəti üzrə Üzeyir bəyin otağında müzakirələr olmalı idi. Hamı gəldi. Divar boyu düzülmüş stullarda əyləşdilər. Xaçaturyan baş tərəfdə oturdu. Cövdət Hacıyev Üzeyir bəyin assistenti idi, o, qapının sol tərəfindəki stulda yerini tutmuşdu. Bir neçə dəqiqə keçdi. Heç kim dillənmirdi. Adətən bu tipli müzakirələr coşğu ilə keçərdi. Üzeyir bəy bığlarını dartışdırır və gözləyirdi ki, görək kim söz istəyəcək. Müşavirə iştirakçıları bir neçə dəqiqəni də məzar sükutu ilə yola verdilər. Nəhayət, Üzeyir bəy dilləndi. Qonaq başa düşsün deyə rusca:

- Nə olar, - dedi, - heç kim danışmaq istəmirsə, mən danışaram. Belə, yoldaşlar. Əgər Çaykovskinin simfoniyasının ifası zamanı trombon bir çərək pauza qədər geciksə, bunu zalda oturan hər bir dinləyici dərhal hiss edər. Xaçaturyanın bu simfoniyasında isə trombonun nəinki gecikdiyini, ümumiyyətlə çalğıya başladı, ya başlamadı, bunu tamaşaçı yox, heç müəllif özü də hiss etməz.

Bunu deyib, Üzeyir bəy susdu. Yenidən otağı bürüyən sükunəti Xaçaturyanın addım səsləri pozdu. O, yekə portfelini götürüb, heç nə demədən otaqdan çıxdı. Bu, onun Azərbaycandan axırıncı gedişi oldu.

Bundan hirslənən ermənilər Üzeyir bəyi aradan götürmək, onun yerinə xaçaturyanı irəliyə aparmaq istəyirdilər. Ona görə də, rəhbərlərə Üzeyir bəydən şikayətlər etmişdilər. Guya ki, Üzeyir bəy sadəcə azərbaycanlılara kömək edib qabağa çəkir. Nə rus tanıyır, nə erməni. Halbuki, Üzeyir bəyin yanındakı öyrəncilərdən yarısı erməni, yarısı rus, yarısı da azərbaycanlı idi.

Üzeyir bəy haqsızlıqdan, ədalətsizlikdən, böhtandan sakitləşə bilmir, əsəbdən od püskürürdü:

-Siz necə deyə bilərsiniz ki, sadəcə, azərbaycanlılara yol açıram. Utanın! Mən rəhmsiz olsaydım, yanımda olan ermənilərin hamısın birdən-birə təhsildən uzaq edər, yanımdan qovardım. Ancaq, mən siz deyiləm. Bütün istedadlılarıma dərs keçəcəyəm. Siz isə mənim əməyimi itirin. Onsuzda bu vicdanla sonunuz bəllidir.

Heç nəyə fikir verməməyə çalışsa da bu haqsızlığa Üzeyir bəyin ürəyi ağrayırdı. O, o qədər əmək sərf etmiş, istedadlı gəncləri işə düzəltmiş, onların müəllimi olmuşdu. Onun bu qədər əməyinin üstündən bir sözlə xətt çəkildi. Bir sözlə onun əməyinin “ə” hərfi də sayılmırdı. Ona görə də Üzeyir bəyin işinə həvəsi azalmışdı. Hər yerdə ona başqa cür baxırdılar. Gerçək isə ortada idi. Danılan gerçək.

Üzeyir bəy ruhi repressiyanı yaşayırdı. Hər dəfə ən kiçik şeyə əsəbiləşirdi. Erməni sözünün işlənilməsini belə istəmirdi. Lənət oxumağına davam edirdi bu imansızlara, bu məxluqlara. Çünki, əvvəldən bilirdi erməni xislətini. Həmişə də mübarizə aparırdı bu xislətlə.

Bir müddət sonra onda ağır şəkər xəstəliyi aşkarlandı. O, bu xəbəri eşidəndə belə dedi:

-Allah dünyadakı bütün millətçi, naqis ermənilərə lənət eləsin! Təkcə belə ermənilərə yox, bütün pislərə!

Müalicə olunan Üzeyir bəyin günləri əvvəlkindən daha da ağır keçirdi. O, günlərlə özünü pis hiss edir, psixoloji əziyyət çəkirdi. Ariyasını yazdığı “Firuzə”yə də həvəsi azalmışdı. Bütün ümidlərini itirmişdi. Şəkər xəstəliyi onun ümidini daşa döndərirdi. Onun yarısını öldürürdü.

1948-ci ilin noyabrında artıq Üzeyir bəy zorla yaşayırdı. Dünyaya qanadlı gəlmişdi, indi isə ayaqlarını sürüyürdü. Yaşamağının bir mənası qalmamışdı. Ölmək istəməsə də, yaşamağın həvəsini itirmişdi.

O, öləcəyini bilirdi. Lakin, heç kəsi incitmək istəmirdi. Ömür bitənə qədər yaşamaq lazım idi. Amma, o, bitirəndən sonra da davam etdirəcəkdi ömrünü.

Üzeyir bəy ayağa qalxdı və dedi: - Mələykə, mənə bir çay...- bu sözləri qırıq-qırıq deyəndən sonra yerə çırpıldı.

Mələykə xanım və tibb işçiləri tez Üzeyir bəyin yanına qaçdılar. Tibbi yardım göstərib Üzeyir bəyi ayıltdılar. Lakin, gün həmin gün imiş. Olmalı imiş bu.

Üzeyir bəy son sözlərini dedi: - Allah bütün pislərə lənət eləsin! Onlar lənətlik əməlləri etdilər. Lakin, xalqım məni unutmayacaq. Xalqım məni ucaldacaq, mən xalqımı ucaltdığımdan da çox...- və bundan sonra o dahi bir daha doğulmayacaqdı.

Üzeyir bəy 63 illik ömrünü boşa yaşamadı. Boş işlər görmədi. Hər dəfə xalqı üçün çalışdı. 3 dövlətin himnini, bir Turanın marşını yazdı. Xalqının korifeylərini kəşf etdi, yetişdirdi. Əgər Üzeyir bəy bu qədər işlər görməsə idi xalq heç bir zaman maariflənməyəcəkdi. Hələ mədəniyyət sahəsində heç maariflənməyəcəkdi. Üzeyir bəy cənnətin ən gözəl bucağındadır və ruhu şaddır. Çünki, ona lazımınca qiymət verilib, verilir və veriləcəkdir!

Üzeyir bəy Ağcabədidə doğuldu, Arazbarı seyr etdi və “Arazbarı” zərb muğamını nota köçürərək əbədiyaşar etdi və özü də bu muğamla yaşadı. Bu əsərlə Arazbarını bizə tanıtdı, o musiqi ilə biz Arazbarı seyr etdik...

Ruhun şad olsun Turanın Dünyasının, Dünyanın Turanının DAHİSİ ÜZEYİR BƏY HACIBƏYLİ!

***Sevindik NƏSİBOĞLU***
***01.03.2020-23.05.2020***

